# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi ehtiramla anıldı

**Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anım günü ilə əlaqədar olaraq Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov Milli Qəhrəmanın Əliabad kəndində yerləşən ata ocağını ziyarət edərək ailəsi ilə görüşdü.**



Biləsuvar RİH-in başçısı Faiq Qürbətov bildirib ki, Azərbaycan xalqı, bütün türk dünyası elimizin qəhrəman oğlu Mübariz Ağakərim oğlu İbrahimovla fəxr edir. Qəhrəmanın keçdiyi döyüş yolu, onun qəhrəmanlığı gənclərimizə örnəkdir. Rayon rəhbəri qeyd etdi ki, Mübariz İbrahimov torpaqlarımızın müdafiəsi zamanı göstərdiyi şücaətlə Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya sübut etdi. Qısa ömür yaşasa da, canını vətən yolunda fəda etməsi ilə özündən sonra böyük bir igidlik, mübarizlik məktəbi qoydu. Mübarizdə olan Vətən, torpaq sevgisi, vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı.

Görüş zamanı qəhrəmanımızın şərəfli döyüş yolundan danışılaraq xatirəsi anıldı. Bildirilib ki, Azərbaycan xalqının qüruru, fəxri olan şəhidlərimizin xatirəsi daim əziz tutulacaq və dövlətimiz hər zaman şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələrinin yanında olacaqdır.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov 18 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində xidmət etdiyi cəbhənin Tərtər istiqamətində düşmənin işğalı altında olan Çaylı kəndindəki erməni qərargahına girərək əsl bir cəngavər kimi 5 saat təkbaşına döyüşür. Ermənilər əvvəlcə elə zənn edirlər ki, onlara qarşı Azərbaycan ordusu hücuma keçib. Gecənin qaranlığında çaşbaş qalan düşmən Azərbaycan əsgərinin göstərdiyi bu şücaətin qarşısında ağır itkilər verir. Düşmən bir neçə saat davam edən bu döyüşə əlavə qüvvə cəlb edir. Elə bu amansız döyüşdə Mübariz İbrahimov qəhrəmancasına həlak olur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Mübariz Ağakərim oğlu İbrahimov torpaqlarımızın azadlığı uğrunda rəşadətli və müstəsna xidmətlərinə görə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Milli Qəhrəmanın atası Ağakərim İbrahimov onların ailəsinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığını bildirdi.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

Respublika .- 2021.- 14 noyabr.- S.6.